# "VER SÖZƏ EHYA Kİ..."



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Məmməd Qədirin şeirləri haqqında yazıya başqa ad tapa bilmədim, dahi şairimizin məşhur "Söz" qəzəlindəki "Ver sözə ehya ki.." poetik kəlamı yada düşdü. Azərbaycan poeziyasının bütün tarixinə nəzər yetirsək, sözün şeirə, şeirin poeziyaya çevrilməsini izləyə bilərik. Söz əşya, hadisə, proses və xassələrin adını bildirir, ən mühüm struktur-semantik dil vahididir. Hər bir söz müəyyən nitq hissəsinə aiddir və konkret məna ifadə edir. Həyat, yaşayış, dirilik söz olmadan mövcud deyil.**

dirilik verən, onun missiyasını ucalara qaldıran bir sehrkar deyildimi? Onu söz sənətinin mahir rəssamı adlandıranlar səhv etməmişlər. Şərqdə miniatür sənətinin yaratdığı möcüzələri xatırlayın. Əlyazma kitablarını bəzəmək üçün əlvan rənglərpin yaratdığı o rəsm əsərləri, həcminin kiçikliyinə baxmayaraq, indi də göz oxşayır. Füzulinin də qəzəlləri, bu qəzəllərin ayrı-ayrı beytləri və bu misralarda canlanan romantik səhnələr də həmin o miniatürləri xatırladır. Onun təşbihləri.ö metaforaları, mübaliğələri, təlmihləri o qədər zəngin və orijinaldır ki, Füzulidən sonra gələn şairlər öz qəzəllərində bu məharəti göstərməyə can atmışlar.

**Bu qəmlər ki, mənim vardır, bəirin başına qoysan,**
**Çıxar kafər cəhənnəmdən, gülər əhli-əzab oynar.**

**Söz laybalay içimdədir,**
**Mən də sözün içindəyəm...**

Bu, Məmməd Qədirin bəyənat xarakterli bir şeiridir və mən müfəttim məntiqi ilə şairin doğrudan da "Söz laybalay içimdədir, Mən də sözün içindəyəm" həqiqətinə şübhə etmək niyyətində deyiləm.

Məmməd Qədir şairdir və onun şairliyi hər şeirində bu və ya digər dərəcədə özünü büruzə verir. Şeirin kamilliyi, yəni onun texnikası, forma-məzmun vəhdəti, ideya-fəlsəfi yönü şairin kamilliyindən asılıdır. Bu mənada Məmməd Qədirin hər bir şeiri Məmməd Qədirin müəyyən bir fikrinin poetik ifadəsidir.

Məmməd Qədir filosof-alim deyil. Amma şeirlərində həyatın, ömrün-günün, varlığın-yoxluğun mənalarına varmağı çox sevir və əslində, bu sayaq düşüncə

Xaçmazın, onun bir kəndinin, gözəl təbiət mənzərələrinin aşiqidir. Aşiqlik isə bitmir-tükənmir. Baxın bu şeirə:

**Bu nə ətirdi, gözəlim,**
**Çiçəklər qoxumaz belə.**
**Səsin cənnət nəğməsidir,**
**Bülbüllər oxumaz belə.**

**Gül açmış yaşılı, alı,**
**Dodaqdan süzülür balı,**
**Ağlımı başımdan alır,**
**Nə şeytanmış bu naz belə...**

**Döndüm dəli aşiqinə,**
**Gecə dözmür işığıma,**
**Kür yetişmir aşığıma,**
**Topuğumdan Araz belə.**

**Eşqin badəsin içirəm,**
**Çiçəyi güldən seçirəm,**

**Sözün müxtəlif çalarları var və ən emosional çaları bədii sözdə öz əksini tapır. Dahi Nizami "Məxzənül-əsrar"ın girişindəcə yazırdı ki: "Bu xəlfət pərdəsini açan zaman əlbəəl, Söz oldu bu cahanda cilvələnən ilk gözəl. Səfin önü, arxası o zaman ki, düzəldi, Əvvəlcə peyğəmbərlər, sonra şairlər gəldi". Sözün və şairliyin bu dərəcədə ali mərtəbəyə qaldırılması Şərq və Azərbaycan poeziyasın özəl xüsusiyyətindən irəli gəlir. Lakin söz özlüyündə hələ şeir deyil, sözün şeirə çevrilməsi üçün şairlik məharəti gərəkdir. Şair olan şəxs sözləri -söz birləşmələrini nizama düzür, ritmə salır, ahəng yaradır və bir məna, məzmun meydana gəlir. Sergey Yeseninin sözləriylə desək: "Bəli, şair olmaq odur ki, gərək, Öz damarlarından qanı çəkərək, Vurub isidəsən özgə qanını, Qoy lap qurbağanın nəğməsi olsun, Dünyaya təzə bir nəğmə ver ancaq". "Təzə nəbmə" isə POEZİYA deməkdir. Çünki POEZİYA öz mahiyyəti etibarilə ŞEİR deyilən anlayışdan daha üst mərtəbədə duru rvə mən burda məşhur Argentina şairi Armando Texado Qomesin bir fikrini xatırlatmaq istəyirəm: "Mənə sual verirsiniz ki, siz poeziyaya hansı tələblərlə yanaşırsınız? Ən başlıca tələb odur ki, poeziya əsl poezimya olsun. Mən zarafat etmirəm, düz sözümdüyr: şeiri hamı yaza bilər. Amma unutmayın ki, şeir hələ poeziya deyildir, şeir poeziyanı ifadə etmək üçün yalnız bir vasitədir. Sözlər, misralar unudula bilər, qalan nədirsə, o-poeziyadıfr. Yaddaqalan sözlər və misralar da ola bilər, onları yadda saxlayan, yaşadan da poeziyadır".**

Məmməd Qədirin şeirləri haqqında söhbətə söz-şeir-poeziya paralelindən başlamağım da səbəbsiz deyil. Onun "Bu gecəyə toxunma" və "Aya bir söz demişdim" şeir kitablarında mən sözün şeirə, şeirin də poeziya necə çevrildiyinin şahidi oldum. Əslində, bu proses öncə qeyd etdiyim kimi bütün əsrlər boyu Azərbaycan poeziyasında müşahidə edilmişdir. Ən böyük söz ustadı Füzuli bütün sonrakı əsr şairlərimiz üçün sözə

Füzuli deyir ki, mənim bu qəmlərim ki var, dəvənin başına qoysan, kafər cəhənnəmdən çıxar, orada əzab çəkənlər gülüb-oynarlar.

**Yerdən, ey dil, göyə qovmuşdu sirişkin mələki,**
**Anda heç qoymayacaqdır oları əfqanın.**

Füzuli deyir ki, ey qəlbim, sən nə qədər göz yaşı tökdün ki, mələklər yerdə qala bilməymb göyə qalxdılar, amma göyə ucalan fəryadın onları orada rahat qoymayacaqdır.

Divan ədəbiyyatında Füzulini bütün əsrdaşlarından, sonradan onun məktəbinə daxil olan sənətkarlardan yüksəyə qaldıran əsas cəhət məhz obrazlı təfəkkürün qüdrətidir.Yəni Sözün bu dərəcədə mükəmməl səviyyədə poetik ifadəsidir. Füzuli dərsini bütün sonrakı şairlərimiz mənimsəmişlər, xüsusilə, XX əsr Azərbaycan poeziyasında Əli Kərim, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Salam Sarvan kimi fərdi üslubu etibarilə bir-birinə qətiyyən bənzəməyən, lakin sözün potensial imkanlarını poeziyanın maksimal ifadəsinə çevirən şairlərin yaradıcılığı Azərbaycan Sözünün yeni bir mərhələsini əks etdirir. Ramiz Rövşənin "Yenə təptəzə qaldı söz, Mən sözün tozunu aldım" misraları Sözün bütün əsrlər boyu təzəliyini və hər orijinal şairin bu təzəliyi ortaya çıxardığı həqiqətini əks etdirir. Məmməd Qədirin şeirləri də məhz həmin həqiqətin yeni bir variantıdır.

Mən qətiyyən hər iki kitaba yazılan ön sözlərin və rəylərin təsiri altına düşmək istəmirəm, burada səmimi hisslərdən yoğrulan təriflər çoxdur, "Bu adam poeziya nəhəngidir" və s. belə təriflər ilk növbədə, Məmməd Qədiri çaşdırmamalıdır. O nəhəngliyin kölgəsini heç olmasa, onun şeirlərində axtarıb tapmaq daha doğru olardı.

**Doğulandan vəl çəkirəm,**
**Əkindəyəm, biçindəyəm.**
**Bir sərçənin dimdiyində,**
**Bir durnanın köçündəyəm.**

**Dərdlər mənim ölçümdədir,**
**Bir boyda, bir biçimdədir,**



tərzi bir insanın fərdi-subyektiv fəlsəfi aləmini əks etdirir.Bu mənada onun əksər şeirlərində həyata, dünyaya, gözəlliyə, ölümə, sevgiyə fərqli bir münasibəti ilə seçilən və daha artıq seçilməyə can atan bir insanın, təbii ki, istedadlı bir şairin "fəlsəfi incələmələri" nəzərə çarpır.

**Bu dünya oxdan asılıb,**
**Varlığı yoxdan asılıb,**
**Nəsimi çoxdan asılıb,**
**Quruyub dar ağacları.**

**Hər qaranlıq axşam deyil,**
**Hər şölə saçan şam deyil,**
**Bu gəzənlər adam deyil,-**
**Qəhər, qübar ağacları.**

**Ölüm imiş bildikləri,**
**Ağlamaqdı güldükləri,**
**Kim güldürər kötükləri,**
**Kim ağladar ağacları.**

Məmməd Qədir üçün mövzu məhdudiyyəti deyilən bir anlayış yoxdu, əslində, şair üçün əvvəlcədən məlum-köhnə ya təzə mövzu yoxdu, yalnız şairin dünyaya, insana söylədiyi həqiqətlər var. Məmməd Qədiri bu mənada "tale şairi", "sevgi şairi" adlandırmaq, bundan sonrakı fikirlərimi də bu axara yönəltmək niyyətində deyiləm. Sadəcə deyim ki, Məmməd Qədir həyat eşqi ilə yaşayan, dünyanın, vətəni Azərbaycanın, yaşadığı

**Girib içindən keçirəm,**
**Dənizlər nə dayaz belə...**

**Sevgin əlacdı qəlbimdə,**
**Nurlu yol açdı qədbimdə,**
**Eşqin gül açdı qəlbimdə,**
**Doğdu məni bu yaz belə...**

Siz bu şeirə nə xəyyamanə tərzdə yazılan bir şeir, nə də adicə sevgi şeiri kimi baxmayın. Bu şeir bir həyat aşiqinin könül qışqırtılarıdır. Belə xoş qışqırtılar Məmməd Qədirin şeirlərində bol-boldur.

Ancaq bir həqiqəti gizlətmək lazım deyil ki, Məmməd Qədirin şeirlərində SEVGİ yaşanılan, hər saniyə, hər dəqiqə, hər saat, hər gün, hər gecə və gündüz duyulan bir hissdir. Əbədi hiss. "Öldüm İlahi eşqdən",-deyir və onun təsvir elədiyi sevgili də, onun gözəlliyi də, bu gözəlliyin yaratdığı mənəvi fırtınalar da...hər şey, hər şey təmizdir. Təmizdir, safdır, hətta zülmü, cövrü ilə: "Yanıb kül olan ev kimi, İçim, çölüm tüstülənir".

Məmməd Qədirin deyərdim bir neçə şeiri istisna olunmaqla, hamısı qoşma və gəraylıdı. Bu şeir növlərinin indiki bol bazarında Məmməd Qədimrinkilər təzəliyilə seçilir. Mən bu təzəliyi axıfrıncı illərdə mərhum Məstan Günərin şeirlərində görmüşdüm. Şeirin gözəlliyi oradakı təşbihlər, metafyoralar, bir sözlə, bədii təsvir vasitələri və orijinal deyimlərlə ölçülürsə, Məmməd Qədirin qoşma və gəraylılarında nə qədər desən, gözəl nümunələr tapmaq olar. Ancaq mətələbi uzatmaq istəmirəm. Məmməd Qədirin "Torpağa kimi" şeiri başdan-ayağa təşbih silsiləsidir. "Dərd yüyürür üstümə, Yiyəsiz çağa kimsi...Həsrət çevirdi məni, Çanaqlı bağa kimi... Ucaldı ahım, vayım, Arandan dağa kimi... Qocaldıqca suç oldum, Taleyimdən açıldım, Şimşək kimi sancıldım, Göydən torpağa kimi".

Mən bilirəm ki, Məmməd Qədirin Qarabağ mövzusunda yazdığı bayatıları, "Unudulur Vətən dərdi" tipli çağırış şeirləri də var və o şeirlərdə də Məmməd Qədir öz şair təmkinini, sabitliyini saxlayır. Ona Azərbaycan şeiri qədər uzun ömür arzulayıram!